

# Ömrə calanan illər...

## Ön söz əvəzi

*Salam Qədirzadəni oxuculara təqdim etməyə heç bir lüzum yoxdur. Çünki gəncliyimiz onun bir-birindən gözəl, duzlu-məzəli əsərəlzindən keçib. Təəssüflər oslun ki, bu gün 84 yaşını qeyd etdiyimiz görkəmli yazıçı haqqında keçmiş zamanda danışmaq məcburiyyətindəyik. Axı, o 19 ildir ki, həyatda yoxdur...*

*İlk addımı uğurlu olub. Hələ M.Qorki adına Ədəbiyyat İnstitutunda oxuyarkən yazdığı ilk povesti («Gənclik») Moskvada «Detqiz» nəşriyyatında çap olunub və diplom işi kimi qəbul edilib. Sonra qələmindən çıxan «Qış gecəsi», «Burada insan yaşamışdır», «Su pərisi Mariana», «Başabəla Paşabəla», «Ömrün təzə illəri», «Kəndimizdə bir gözəl var» kimi roman və povestləri oxucuların rəğbətini qazanıb. Bu əsərlər başqa xalqların dilinə də tərcümə edilib. O, satirik əsərlərində yaşayışımıza mane olanları kəskin tənqid atəşinə tutur, oxucuları güldürə-güldürə düşündürürdü. Böyük əsərlərində isə qayğıkeş insanlara xoş duyğular aşılayır, saf məhəbbəti, gəncliyi tərənnüm edirdi. S.Qədirzadə həm də «Şirinbala bal yığır», «Haradasan, ay subaylıq», «Hləmişəxanım», «Gurultulu məhəbbət», «Gözəllik ondur» kimi respublikamızda və onun hüdudlarından kənarda tamaşaya qoyulan komediyaların müəllifidir. Uzun müddət mətbuat orqanlarında («Azərbaycan» jurnalında məsul katib, sonra redaktor) müxtəllif vəzifələrdə çalışmış, Azərbaycan Yazıçılar İttifaqında dramaturgiya üzrə məsləhətçi olmuşdur. Bunların hamısını oxucularımız yaxşı bilir. Odur ki, bu yazıda S.Qədirzadənin həyatında bizim üçün nisbətən naməlum olan səhifələri vərəqləməyə çalışacağıq. Gəlin, əvvəlcə onun həyat yoldaşı Roza xanımı, oğlu Ruslanı və dostu Əli Tohidini dinləyək. Bu söhbəti onlarla düz 10 il qabaq aparmışam. Təbii ki, bu gün siz həm də gözəl yazıçımızın qızını da dinləyəcəksiniz. Leyla xanımla söhbətimiz 2 dəfə olub. 1998-ci ildə və bu yaxınlarda.*

## Məhəbbət vətəndən güclü çıxdı

Həyat yoldaşı Roza Qədirovanı həyəcansız dinləmək mümkün deyil:

- Mən Salamla elektrik qatarında tanış olmuşam. O vaxt Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunda oxuyurdum. Qatarla tez-tez gedirdim və demək olar ki, həmişə də onunla rastlaşırdım.

...Mütaliəni çox sevirdim. Əlimə keçən qəzet, jurnal və kitabları acgözlüklə oxuyurdum. Qatarla 30-40 dəqiqə yol gedər, həmişə də gözüm oxuduğum yazılarda olardı. Sən demə bu da onların diqqətini cəlb edir. Bunları mənə sonralar Salam danışardı.

Bir gün qatarda yenə rastlaşıb, tanış olduq. 6-7 nəfər idilər. Nəbi Xəzri, Əli Kərim, İsgəndər Coşqun, Cabir Novruz, İsa Hüseynov, Salam... Onlar Peredelkino kəndində yaşayırdılar. İnstitutun yataqxanası orada idi. Kasıb yaşayırdılar. Salam danışırdı ki, Səməd Vurğun hər dəfə Moskvaya gələndə bizə baş çəkər, yeməkxanaya aparar, kiminə şərf, corab, kiminə də pul verərdi...

***- Səməd Vurğunu Siz də görmüsünüzmü?***

- Hə... Amma bu sonralar olub, Bakıda. Bir gün Yazıçılar İttifaqına getmişdim. Salam məni pillələri enən böyük şairlə tanış etdi. Səməd Vurğun Moskva həyatını xatırlayıb, gülümsündü: «Demək belə, məhəbbət Vətənə layiq gəldi».

Salamla 1951-ci ildə tanış olduq. Bir il sonra isə ailə həyatı qurduq. Kasıb yaşayırdılar. Evləri Xırdalanda idi. Bir qardaş və beş bacısı vardı. Onların üstündə zəhməti çox oldu. Onlara ata əvəzi oldu. Toylarını etdi.

Çox tələbkar idi. Bəzən inana bilmirdim ki, bu qədər zarafatcıl, şən adam həm də tələbkar ola bilər.

***- Onun bu tələbkarlığı Sizi bezikdirmirdimi? Belə anlarda heç bu yerləri atıb, birdəfəlik Moskvaya qayıtmaq fikrinə düşmüsünüzmü?***

-Əlbəttə yox, bu haqda yeri gəlmişkən deyim ki, məndən çox soruşublar. Deyirlər ki, Moskvada sənin anan, bacın, qohumların basdırılıb. Cavabında bildirmişəm: «Mənim üçün Salamdan əziz heç kim yoxdur. Öləndə məni də onun yanında dəfn edin...»

# Atalı günlərimiz şirin bir yuxu idi

Salam Qədirzadənin iki övladı olub. Bir qız və bir oğlan. Gəlin, əvvəlcə Ruslanı dinləyək.

***- Ruslan, atanızla bağlı maraqlı bir xatirə danışa bilərsinizmi?***

- O qədər belə əhvalatlar var ki. Bir dəfə bizə yaşlı bir kişi gəldi ki, yazıçıyam, atanı istəyirəm. 60-65 yaşı olardı. Atamla görüşdükdən sonra dedi: «Mən Sizə şerlərimi gətirmişəm. İstəyirəm oxuyub, baxasınız və məsləhət verəsiniz. Yazıçı olmağı qərara almışam...»

Atam özünü o yerə qoymayıb «şerləri» axıradək oxudu və nəhayət, başını qaldırıb, məhz Salam Qədirzadəyə məxsus aydın dillə kişini sorğu-suala tutdu:

- Siz nə işə baxırsınız?

- Kolxozda briqadirəm.

- Çox yaxşı. Mən də briqadir ola bilərəm?

- Yox, nə danışırsınız, bunun üçün oxumaq, təcrübə lazımdır.

- Bax, şeri yazmaq üçün də istedad lazımdır. Bir də unutmayın ki, şeri yazan şair olur, yazıçı yox.

Kişi dəvətimizə baxmadı, çay içmədən, çörək yemədən qovluğunu qoltuğuna vurub, tələsik çıxıb getdi...

***-Leyla xanım, eşitdiyimizə görə atanız sizi hamıdan çox istəyib. Elə siz də onu.***

- Təbii ki, hər kəsin atası özünə əzizdir. Mübaliğə kimi səslənməsin: mənim atam, bir ata idi. Oğluma onun adını vermişəm.

Səliqə-sahmanı çox sevərdi. Çox da qayğıkeş idi. Hamıya kömək əlini uzadardı. Ona çoxlu məktub gələrdi. Birini də diqqətdən kənar qoymazdı.

Evimiz həmişə qonaqlı-qaralı olardı. Çoxu da yazıçı, şair, bəstəkar... Onlardan Süleyman Rüstəmi, Qabili, Süleyman Ələsgərovu və b. göstərə bilərəm.

Çox kövrək ürəyi vardı. Heç kəsin xətrinə dəyməzdi: «Ürək şüşə kimidir, sındımı, bir daha calamaq olmaz...»

***- Nəvələrdən deyəsən, heç babalarına çəkən yoxdur. Elə özünüz də, yaradıcılıqla məşğul olmursunuz?***

- Yox... Amma hələlik, nəvələri bilmək olmaz.

***- Atanızdan sonra sizə baş çəkən, yoxlayan, maraqlanan olubmu?***

- Bir neçə dostunu çıxmaq şərtilə, yox. Ən sadiq dostu Əli müəllim çıxdı.

«.... Kəndimizdə bir gözəl var – adı Leyladır onun»... Hər dəfə atamın - yazıçı Salam Qədirzadənin qələminə məxsus bu sətirlər yadıma düşəndə qəlbimi fərəh bürüyür. Düşünürəm: «O Leyla mənəm». Əlbəttə ki, mən atamın «Kəndimizdə bir gözəl var» əsərində həyatından bəhs etdiyi qız deyiləm. Sadəcə, romanın müəllifi həmin əsəri mənə – yeganə qızına ithaf edib. Eləcə də «Su pərisi Mariana» əsəri anam Roza xanıma, «Sevdasız aylar» isə qardaşım Ruslana həsr olunub.

***- Bütün kitablarını, haqqında gedən yazıları oxusaq da Salam Qədirzadə ilə bağlı məlumatımızı zənginləşdirməyə ehtiyac var.***

- Atama qədər nəslimizdə heç kim yazıçılığa meyl göstərməyib. Onun valideynləri sadə adamlar olublar. Ticarətlə məşğul olan atası özünün, ailəsinin ruzusunu balaca dükanından gələn gəlirdən çıxarıb. Anası Ziba isə elə evlərində dərzilik edib. Nənəmin də, babamın da əsilləri Maştağadandır. Sonradan Bakıya köçüblər. Atam bu şəhərdə 1923-cü il aprelin 10-da dünyaya göz açıb. Evin ikinci uşağı olub. Ondan böyük bir bacısı varmış. Atamdan sonra ailələrində dörd qız, bir oğlan uşağı da dünyaya gəlib.

O, orta təhsil aldığı 150 saylı məktəbdə keçən illərini həmişə minnətdarlıqla xatırlayırdı. Qardaşımla mən balaca olanda bizi gəzməyə çıxarar, çox vaxt da yolunu mütləq həmin məktəbin yanından salardı. Ora çatanda ayaq saxlayar, məktəbin binasını bizə göstərər, qürurla «Mən burada oxumuşam», - deyərdi.

Lap uşaq yaşlarından atamın ailələrində xüsusi yeri olub. Qardaş-bacıları onu həddindən artıq çox istəyib. Böyük qardaşlarıyla fəxr ediblər. Evdə ona – ailənin ən istedadlı uşağına oxuması, yaradıcılıqla məşğul olması üçün şərait yaradılıb. Atamın yazıçılıq həvəsi orta məktəbdə yazdığı şerləri ilə üzə çıxıb. Ancaq o dövrdə onu təkcə ədəbiyyat maraqlandırmayıb. Musiqini o qədər sevib ki, hətta tar çalmağı öyrənməyə qərar verib. Bu sahədə təhsil almaq üçün sənədlərini götürüb musiqi məktəbinə gedib. Onların musiqi qabiliyyətini bəstəkar Üzeyir Hacıbəyov yoxlayırmış. Növbə atama çatıb. O, tarda bir musiqi ifa edib. Üzeyir bəy deyib ki, bala, sən bu sənəti at, tarzən olmaq





sənlik deyil.

Atam bu xatirəni arabir yada salar, gülə-gülə bizə danışar, sonra ona doğru yol göstərən Üzeyir bəyə rəhmət oxuyardı. Çünki bəstəkarın məsləhətindən sonra o, ciddi düşünüb:axı rəssam ola bilərdi, istedadı var idi, yaxşı şəkillər, şarjlar, karikaturalar çəkirdi. Bəs bunların hamısından qabaq, lap kiçik yaşlarından onu cəlb edən yazıçılıq istəyi? Hansı sənətin sahibi olur-olsun, bir gün hər şeyi atıb ona doğru can atacağını hiss etmirdimi? Artıq yazmağa başladığı şerləri də pis alınmırdı. Bundan sonra bir müddət tərəddüd edib: rəssam olsun, yoxsa yazıçı-şair? İllər keçdikcə ədəbiyyata olan marağı rəssamlıq həvəsini üstələyib.

Yeddi uşağının heç birinin, necə deyərlər, hələ əlləri çörəyə çatmamış babam vəfat edib. Ondan sonra çətin vəziyyətdə qalıblar. Nənəm heç yerdə işləmirdi, evdə sifariş götürür, dərzilik edirdi. Ancaq onun da qazancı çox deyildi. Odur ki, ailənin əsas qayğıları böyük oğul kimi atamın üzərinə düşür. O, bacılarına, qardaşına həm ata olub, həm də qardaş. O həm təhsilini davam etdirmək, həm də həyatlarını düzəninə qoymaq üçün yollar axtarıb, planlar qurduğu vaxt Böyük Vətən müharibəsi başlayıb. Orta məktəbi yenicə başa vuran, on səkkiz yaşlı gənc hər şeyi pərən-pərən qoyub könüllü olaraq cəbhəyə yollanıb. Müharibədə rabitəçi olub. Döyüşlər zamanı dəfələrlə yaralanıb, dönə-dönə ölümlə üzləşib. Bakıya 1945-ci ildə Böyük Vətən müharibəsi başa çatandan sonra qayıdıb. Beşillik ayrılıqdan dönən atam həyatını yenidən qurmaq, oxuyub təhsil almaq və söz yox ki, yazıçılıqla məşğul olmaq istəsə də, əvvəlcə işləməli, bacılarına, qardaşına, anasına maddi cəhətdən kömək etməli olub. Bir müddət Sumqayıtın salınmasında iştirak edib. İlk əsəri olan «Gənclik» povesti də elə o illərə həsr olunub.

Maddi cəhətdən vəziyyəti ürəkaçan olmasa da, oxumaq sevdası onu Moskvaya, Maksim Qorki adına Ədəbiyyat İnstitutuna aparıb. Məktəbə qəbul olunub. Arzulu, macəralı tələbəlik həyatı başlayıb. Atam Moskvada Nəbi Xəzri, Əli Kərim, İsa Hüseynovla bir dövrdə oxuyub, yataqxanada eyni otaqda qalıb, möhkəm dost olublar. Qayğıları da bir olub. Kasıb tələbə gənclər təqaüdlə güclə dolanıb, çox vaxt heç çörək almağa belə pul tapmayıblar. Atam danışardı ki, elə ac vaxtlarımız olurdu ki... Moskva yeməkxanalarında o zamanlar yemək masalarının üstünə həmişə çörək və xardal qoyurdular, bunlar pulsuz idi. Atamgil də yeməkxanaya gedib o çörəklə xardalı yeyirmişlər ki, ürəklərində durum olsun.

O, özlərindən əvvəlki ədəbi nəslin nümayəndələrindən yalnız Səməd Vurğunun adını tez-tez çəkər, onu sadə, xeyirxah adam kimi yada salardı. Tələbəlik çağlarında şairin onlara necə kömək etdiyini xatırlayardı. Moskvaya tez-tez gedən Səməd Vurğun azərbaycanlı tələbələrə baş çəkər, hər dəfə də restorana aparıb qonaqlıq verərmiş. Bayramlarda Moskvada Ədəbiyyat İnstitutunda oxuyan gənclərin paxlava, şəkərbura paylarını Səməd Vurğun apararmış. Onların ehtiyac içində yaşadıqlarını, korluq çəkdiklərini görən şair bəzən soyuq qış aylarında birinə şərfini, birinə papağını verib.

Atamgil institutda oxuyanda məşhur bir evdə – yazıçı Fadeyevin bağ evində qalıblar. Oranı sonralar yaradıcılıq evinə çevirdilər. Amma atamgilin təhsil aldıqları illərdə Fadeyevin bağ evi yataqxana binası kimi tələbələrin ixtiyarında olub. Azərbaycanlı tələbələr - Əli Kərim, Nəbi Xəzri, İsgəndər Coşqun, Cabir Novruz, İsa Hüseynov və atam hər gün Peredelkinodan şəhərə elektrik qatarıyla gedib-gəliblər. Hər səhər qatarda çox gözəl, sarışın, gənc bir qızla yol-yoldaşı olublar. Ətrafında baş verənləri o, elə bil, heç görmür, diqqətlə dizlərinin üstünə qoyduğu kitabı oxuyurmuş. Qızın hər gün həvəslə, yorulmadan mütaliə etməsi tələbələri maraqlandırıb. Yaxınlaşıb tanış olublar. Roza adlı moskvalı qız gənclərin Azərbaycandan gəldiyini, Ədəbiyyat İnstitutunda təhsil aldıqlarını biləndə sevinib. Çünki o da ədəbiyyatı həddindən artıq sevər, mütəmadi olaraq bədii əsərlər oxuyarmış. Söhbətləri tutub. O gündən Peredelkinodan Moskvaya gedən elektrik qatarı gənclərin ədəbiyyat

barədə müzakirə, fikir mübadilələri məkanına çevrilib. Getdikcə bir-birlərini daha yaxşı tanıyıblar. Bir gün azərbaycanlı tələbələrdən biri – Salam Qədirzadə anlayıb ki, qıza vurulub. Bu sevdadan dostları da xəbər tutublar. Atam hələ cürət edib ürəyini açmırmış. Amma yəqin bilsəydi ki, qızın bu qədər tələbənin arasında gözü onu tutub, tərəddüd etməzdi. Atam bir gün cəsarətini toplayıb qıza könül açıb, məhəbbətlərinin qarşılıqlı olduğunu öyrənəndə, sanki dünyanı ona bağışlayıblar. İlk görüşlərində bir-birlərinə ayrı keçən illərindən danışıblar. Anam ondan heç nəyi gizlətməyib. Amma atam bir məsələni sevgilisindən sirr saxlayıb, ona Bakıda heykəltəraş qızla nişanlı olduğunu deməyib.

1952-ci ildə atamın tələbəlik illəri sona yetir. Moskvayla vidalaşmaq vaxtı yaxınlaşır. Ancaq könlünü ovlayan gözəldən həmişəlik ayrılmağı ağlına da gətirmir. Elə qız da onsuz yaşamaq barədə düşünmək belə istəmir. Dostlarını restoranların birinə toplayır, xudmani məclis qurub evlənirlər. Atamın Moskvadan gözəl bir qızla dönməsi anasını, qardaş-bacılarını çaşdırsa da, giley-güzar etmirlər. Həm ona görə ki, atamı çox istəyir, onu özlərinə ağsaqqal bilir, bir sözlərini iki etmirdilər, həm də anlayırdılar – könülə güc yoxdur. Sevgilisinə görə doğmalarını, yurdunu qoyub-gələn qərib gəlini incitməyə də ürəkləri gəlmir. Ona «Salamın nişanlısı var», – deməyə utanırlar. Gəlini mehribanlıqla qarşılayırlar. Heç atamdan soruşmurlar da ki, bəs indi biz neyləyək, nişanlısına, ailəsinə nə cavab verək? Bacıları özləri məsələni yoluna qoyurlar.

Anam atamı sevməyə başlayanda, onun evlənmək təklifinə «hə» deyəndə bilirdi ki, bu məhəbbət ona nələrin bahasına başa gələcək. Moskvadan, əzizlərindən ayrı düşəcək, tanımadığı şəhərdə, üzünü görmədiyi adamların arasında yaşayacaq. Ancaq bunun nə qədər çətin olduğunu Bakıya gəlməyə hazırlaşdıqları günlərdə daha yaxşı anlayır. Fikir çəkir ki, qürbət yerə gedir, orada neyləyəcək, necə yaşayacaq? Atamın qohumları onu yaxşı qarşılayıb, ilk gündən ailənin ən əziz üzvlərindən biri kimi qəbul edəndən sonra ürəklənir. Ziba nənəm, bibilərim anama adət-ənənələrimizi, bütün Azərbaycan xörəklərini bişirməyi, tikiş tikməyi öyrədirlər.

Atam institutda oxuyanda artıq yazıçılıqla ciddi məşğul olur. Bakıya döndükdən sonra, bütün fikrini-zikrini yaradıcılığa verir. Ondan olsaydı başqa işə, vəzifəyə vaxt ayırmazdı. Heç zaman dövlət işlərində çalışmaqdan xoşu gəlməzdi. Doğrudur, müxtəlif vaxtlarda «Azərbaycan» jurnalında, iki dəfə «Kirpi» jurnalında və başqa yerlərdə işlədi, amma getdiyi yerlərdə uzun-uzadı qalmırdı. Yəqin ki, onun əmək kitabçasına yazılan iş stajı on-on iki ildən artıq olmazdı. Atama yaxşı vəzifələr də təklif edirdilər, məsuliyyətli iş də tapşırırdılar. Bacardığı qədər onlardan imtina edirdi. Ancaq bu həmişə mümkün olmurdu. Məsələn, «Kirpi»yə baş redaktor işləməyə getməyə məcbur oldu. Çünki o dövrdə belə məsələlər Mərkəzi Komitə səviyyəsində həll edilirdi. Bəzən vəzifələr Kommunist Partiyasının biletini ciblərində gəzdirənlərə dövlət tapşırığı kimi verilirdi. Atam da 1970-ci ildə «Kirpi» jurnalına baş redaktor təyin olunanda etiraz edə bilmədi. Deyirdi ki, bundan imtina etsəm, sonra kitablarımı çap etməyəcəklər. O, vəzifədə də cəmi dörd il işlədi.

Dövlət işlərindən kənar durmasını özü daha çox yazıçılığıyla bağlayardı: «Nəyimə lazımdır vəzifə?» deyərdi. – «Mənimki odur, çəkilim bir tərəfə, əsərlərimi yazım». Amma mənə elə gəlir, bunun başqa bir səbəbi də atamın xarakteriylə bağlıydı. O çox məğrur adam idi. Yaltaqları xoşlamazdı, deyərdi ki, onlar üçün baryer yoxdur. Əgər bu gün mövqeyinə görə yaltaqlanırsa, sabah hər şey əlindən çıxanda, sənə asanlıqla da xəyanət edərlər. Atamın vəzifə kürsüsündə, mal-dövlətdə gözü yox idi. O, yazıçılığı ən yüksək vəzifə hesab edirdi. Həmişə deyirdi ki, mən elə evdə əsərlərimi yazım, kitablarım vaxtında çap olunsun, qonorarımı alım, bəsimdir. O vaxt yazıçılar yaxşı qonorar alırdılar. Bir kitabın puluna ev, maşın almaq olurdu. Yadımdadır, atam «46 bənövşə» kitabına verilən qonorara özünə avtomaşın aldı.

1974-cü ildə «Kirpi» jurnalından işdən çıxdı. Ondan sonra çox vəzifələrə dəvət olunsa da, ömrünün sonunadək heç yerdə işləmədi. Yaradıcılıqla məşğul olur, qonorarları ilə dolanırdı. O vaxtlar kitab çap etdirmək asan məsələ deyildi. Bir neçə nəşriyyat fəaliyyət göstərirdi. Onların da hamısı xüsusi plan əsasında işləyirdi. Müxtəlif bölümlər üzrə beşillik tematik plan hazırlanır, Mətbuat Komitəsində baxılır, orada təsdiq olunandan sonra çap edilirdi. Atamın əsərləri həmişə plana salınırdı. Ola bilərdi, ya həcmi azaldılır, ya da müxtəlif səbəblərə görə ildən-ilə keçirilirdi. Atam kimi yazıçıların əsərlərini plana salmağa məcburuydular. Mən Xanbabayev direktor olduğu dövrdə «Yazıçı» nəşriyyatında işləmişəm. O zaman özüm şahidi olmuşam. Hər il «dahi rəhbərlər»in – Marksın, Engelsin cild-cild kitablarını çap edirdilər. Onlar nəşriyyata xeyir gətirmirdi. Bunu bilə-bilə tü-



min kitabları nəşr edirdilər. Çünki dövlətin planı var idi. Gənc istedadları tanıtmaq məqsədilə «Müəllifin ilk kitabı» seriyası ilə buraxılan kitabları, hətta bəzi tanınmış yazıçıların, şairlərin kitabları da çox zaman yaxşı satılmırdı. Xeyir gətirən kitabların hər il nəşr edilməsi vacibliydi. Salam Qədirzadənin də kitabları ən çox gəlir gətirən kitablar idi və heç vaxt rəflərdə yığılıb-qalmırdı. Buna görə də hər dəfə plana atamın da əsərləri salınırdı.

Yaradıcı adamlar, adətən, qısqanc olurlar. Atamın kitablarının mütəmadi nəşr olunması, kitabxanalara çatdırılan kimi satılıb-qurtarması kimlərinsə xoşuna gəlmir, bəzən buna görə onun xətrinə dəyirdilər. Atam da inciyirdi. O, əvvəlcə Azərbaycan Yazıçılar İttifaqının, sonralar həm də SSRİ Yazıçılar İttifaqının üzvü oldu. Ancaq dəfələrlə Azərbaycan Yazıçılar İttifaqı tərəfindən fəxri ad almaq üçün siyahı təqdim ediləndə, Mərkəzi Komitədə atamın adı «xeyirxahlarından» birinin sayəsində «ixtisara düşürdü». Əvəzində, layiqli adamlarla yanaşı, çox az tanınan adamlara ad verilirdi. Onun «Mükafatım təbəssümündür» adlı bir əsəri var idi. Mənə elə gəlir ki, atam kitabına bu adı rəmzi mənada vermişdi. Heç zaman fəxri ad almayan yazıçı komik, satirik əsərlərin müəllifi kimi insanlara təbəssüm bəxş etdiyini yada salaraq bildirirdi ki, ən böyük mükafatı xalqın təbəssümüdür. Hər halda, istər-istəməz üzləşdiyi haqsızlıqları qəlbinə salırdı. Amma dərdini, problemlərini heç zaman ailə üzvləriylə bölüşməzdi. Heç anama da yaradıcı aləmdə, ya da iş yerində üzləşdiyi çətinlikləri deməzdi. O hətta işdən çıxanda da biz ən axırda bilərdik. Yəqin ki, yaxın dostlarıyla bölüşərdi problemlərini. Atam həyatboyu çox etibarsızlıqlar gördü. Ona görə də dostlarının dairəsini genişləndirməyi sevməz, köhnələrin qədrini bilər, yenilərini axtarmazdı. Amma qələmlə yoldaş münasibəti saxlamağa çalışardı. Əli Kərimlə, Əlağa Kürçaylıyla, rejissor Mehdi Məmmədovun qardaşı Teymur Məmmədovla, Nəbi Xəzriylə, Qabillə yaxın dost idi. Atam özü dostluqda etibarlı idi. Hərdən bizə elə gələrdi ki, onun üçün birinci dostlarıdır, sonra ailəsi. Hərdən anam buna görə ondan inciyirdi də.

Atam yaxın dostlarının çoxunu tez itirdi. Gənc yaşlarından tanıdığı Əli Kərimin, sonralar isə Əlağa Kürçaylının vəfatı ona böyük mənəvi zərbə oldu. Teymur Məmmədovu qardaş qədər sevər, onunla hər gün görüşərdi. Teymur əminin itkisi atamı əməllibaşlı sındırdı. Ürəyində bu dünyadan köçmüş əzizlərinin dərdləri də vardı. Haqqında danışmaqdan doymadığı sevimli anasının, gənc yaşlarında dünyadan köçmüş bacısının, yeganə qardaşının yoxluğunun ağrısını çəkirdi. Amma hətta ən yaxın adamlarını itirəndə də biz atamın göz yaşı tökdüyünü, sızladığını görmədik. Anam da həmişə deyir ki, mən onu ən ağır anlarında da ağlayan görmədim. Bəlkə də elə ağlayardı ki, kimsə görməsin.

Müşahidə qabiliyyəti güclüydü. Nəzərindən heç nə yayınmırdı. Bəzən bizə adi görünən, diqqətimizi çəkməyən həyat hadisələri barədə o elə maraqla, şirin danışardı ki, gözlərimiz yaşaranadək gülərdik. Atam əsl məclis adamıydı, deyib-gülən, zarafatcıl. Çox baməzəydi. Mənə elə gəlir ki, Salam Qədirzadəni zarafatlarsız təsəvvür etmək mümkün deyil. Müxtəlif lətifələr düzəldib danışar, eşidənlər uğunardılar. Yadıma onlardan biri düşdü: bir gün yolda cavan bir oğlan ona yaxınlaşıb salam verir. Atam salamı alır. Oğlan cibindən dəvətnamə çıxarıb ona uzadır: «Xahiş edirəm, mənim toyuma gələsiniz». Atam təbrik edir. Dəvətnaməni alıb qoyur cibinə. Evə gəlib oxuyur, onu dəvət edən adamı yadına sala bilmir. Fikirləşir ki, əşi insandı da, nə olsun tanımıram, indi dəvət edib, gərək gedəm. O, hər toya da getməzdi. Amma gəncin dəvətini yerə salmayıb məclisə gedir. Nə qədər baxırsa, gözünə tanış adam dəymir. Başlayır yeməyə, özünə yüz qram da araq süzür, amma görür, tək boğazından keçmir. Ətrafına göz gəzdirir. Özündən sinli, təxminən, 40-45 yaşlı bir kişinin də təkcə oturub heç kimə qaynayıb-qarışmadığını görür. Adını bilmədiyindən, hörmət əlaməti ona «Mirzə» deyə müraciət edir: «Mirzə, götür badəni bəylə gəlinin sağlığına içək». İçirlər, bir az keçir, atam deyir: «Mirzə, gəl içək gənclərin ata-anasının sağlığına». Beləcə xeyli içirlər. Atam qayıdır ki, ağsaqqal, bağışlayın, adınızı da bilmirəm, elə bayaqdan sizə Mirzə deyirəm, adınız nədir? Kişi inciyir: «Yekə kişisən, dolamısan məni? Adım elə Mirzədir də».

Atam saatlarla belə məzəli əhvalatlar danışa bilərdi. Amma ailədə başqa cür idi. Onu məclislərdə görənlər inana bilməzdilər ki, bu qədər ciddi, tələbkar ola bilər. Atam həm də çox narahat adamıydı. Bilirdi ki, universitetdə dərslərim gündüz saat 1-də bitir, ordan evimizə isə on beş dəqiqəyə gələ bilərəm. Beşcə dəqiqə gecikseydim, özünə yer tapa bilməzdi ki, bu qız harda qaldı. Qısqanclığı da vardı. Anamı uzun müddət işləməyə qoymadı. O, bütün günü evdə olurdu, heç rəfiqələri də yoxuydu. Elə bibilərimlə rəfiqəlik edərdi. Mənə elə gəlir ki, anam qısqanc qadın deyil. Amma kim bilir, bəlkə də çox şeyə bilərəkdən

göz yumurdu...

Atamın bakılılara xas yemək zövqü var idi. Ən çox xəmir xörəklərini xoşlayar, tez-tez anama sifariş verərdi: «Qutab hazırla», «Düşbərə bişir»... Anam da can-başla həmin yeməkləri hazırlayardı. O təkcə Azərbaycanın adət-ənənələrini, mətbəxini yox, yavaş-yavaş dilimizi də öyrənmişdi. Ruslan məktəb yaşına çatanda onu 190 saylı orta məktəbə vermişdilər. Anam o zaman çox gənc idi. Səhv edəcəyindən, şəkilçiləri düzgün işlədə bilməyəcəyindən ehtiyatlanıb, Azərbaycan dilində danışmırdı. Odur ki, qardaşımın oxuduğu məktəbdə müəllimlərlə, valideynlərlə ünsiyyət qurmaqda çətinlik çəkirdi. Atamın isə məktəbə tez-tez getməyə vaxtı yox idi. Ona görə də anamın xahişini nəzərə alıb, mənim rusca təhsil almağıma icazə verdi. Amma qardaşım da, mən də rus dilini mükəmməl bilsək də, öz aramızda yalnız azərbaycanca danışa bilərdik. Atamla da eləcə. Yalnız anamla rus dilində danışırdıq. Bu barədə atam ailədə ciddi qayda qoymuşdu. Mən buna görə də atama minnətdaram.

Onun üçün yaradıcılıqla məşğul olmağın müəyyən vaxtı-vədəsi yox idi. Müxtəlif vaxtlarda, daha çox gecələr işləməyi xoşlardı. Səhərlər yuxudan erkən oyanmaqla arası yox idi. O, yazı masasının arxasına keçəndə, evdə tam sakitlik hökm sürərdi. Belə vaxtlarda bizə qonaq gəlsəydi, məəttəl qalardı ki, məgər bu evdə uşaq yoxdur? İş otağının qabağından barmağımızın ucunda keçərdik. Televizora baxmalı olsaydıq, səsini qısardıq.

Atamın ölümü qəflətən oldu. Dörd il qabaq birinci dəfə insult keçirmişdi. Ancaq özünü həmişə gümrah tutmağa çalışdığındanmı, ya onun yoxluğunu ağlımıza gətirmək istəmədiyimizdənmi, belə hadisə baş verəcəyini düşünmürdük. 1987-ci ilin 8 noyabrı idi. Qardaşım hərbi toplantıdan təzə gəlmişdi. Atam qərara gəldi ki, yenə hamımız bir yerə toplaşaq. Görüş yerimizi də təyin etmişdi: «Əfsanə» kafesində xudmani bir məclis qurulacaqdı. Həmin gün avtomaşınını təmirə aparıb. Durduğu yerdəcə onu ikinci dəfə insult vurub. «Semaşko» xəstəxanasına aparıblar. Vəziyyəti ağır olduğundan anamdan başqa heç kimi yanına buraxmırdılar. Xəstəxanaya aparıldığının səhəri özünə gəlib. Olub-keçənləri anlayıb. Bir neçə saat danışıb. Sonra yenidən – üçüncü dəfə insult keçirib. Komaya düşdü. Bundan sonra bir də özünə gəlmədi. Bir həftə sonra – noyabrın 15-də atam 64 yaşında dünyasını dəyişdi.

Onu, əlbəttə, həmişə ilk növbədə bizi sevən, isti nəfəsi, qayğısı ilə rahatlıq tapdığımız atamız kimi xatırlayıram. Kişilərin bir çoxu kimi övladlarına qarşı çox tələbkar olsa da, sonralar nəvələrinə qarşı daha yumşaq, mülayim, mehriban baba oldu. Sonra nəzərimdə yazıçı Salam Qədirzadə kimi canlanır. Qardaşımla mən ona əsərləri barədə düşündüklərimizi deyir, bəzən hətta tənqid də edirdik. Diqqətlə bizə qulaq asardı. Atamla zövqlərimiz bir-birinə çox bənzəyərdi. Hətta eyni yazıçıları, eyni əsərləri sevərdik. Onun özünün satirik əsərlərindən xoşu gələrdi, mənim də. Bir də söz yox ki, «Kəndimizdə bir gözəl var» əsərini çox sevirəm. Yəqin, ona görə ki, atam mənim adımı o əsərdəki qıza verib.

Atamla fəxr edirdim. Orta məktəbin xüsusilə yuxarı siniflərində, Bakı Dövlət Universitetində oxuduğum illərdə ətrafımdakı həmyaşıdlarımın onun əsərlərinə olan maraqlarını, kitablarının əldən-ələ gəzdiyini görür, fərəhlənirdim. Onun adı çox yerdə köməyimə çatıb. Mən ailə quranda atam həyat yoldaşımdan xahiş etdi: «İcazə ver, Leyla öz soyadını dəyişməsin». O da atamın sözünü yerə salmadı. Mən bugünədək Qədirzadə soyadını daşıyıram. Onun vəfatından illər keçsə də, soyadımı görənlər «Siz yazıçı Salam Qədirzadənin qızısınız?» - deyə soruşur, müsbət cavab alanda hörmətlə yanaşır, bacardıqları qədər kömək göstərirlər.

# Salam dostluq simvolu idi

Uzun illər yazıçının ən yaxın dostu olmuş Əli Tohidinin dediklərindən:

- Salam haqqında danışmaq çox çətindir. Belə adamın gərək özü də hərtərəfli olsun. Mən onun yaradıcılığı haqqında danışmaq fikrində deyiləm. Əsərləri göz qabağındadır, hamı sevir. Nə qədər kitabı çıxıbsa, rəhmətlik hamısının üstünü yazıb mənə bağışlayıb. Onları əziz bir xatirə kimi saxlayıram.

Salam çoxşaxəli bir adam idi. Biz onunla çox yaxın, mehriban dost olmuşuq. Əvvəllər onu əsərlərinə görə tanımış və sevmişdim. O əsərlərin arxasında onun müəllifini duymuş, hiss etmişəm.

Salamı bu qədər istədiyimi görən Teymur bir gün mənə dedi ki, Sizi tanış edəcəyəm.

Teymur Mehdi Məmmədovun qardaşı imiş.

Mən 35 il bundan əvvəlin söhbətini edirəm. O vaxt N.Krupskaya adına Kitabxanaçılıq Texnikumunda müəllim işləyirdim. Teymur isə Ali və Orta



İxtisas Təhsili nazirliyində inspektor vəzifəsində çalışırdı. Vaxtaşırı görüşdüyümüzdən aramızda xoş ünsiyyət yaranmışdı.

Nə isə, söz verdi, əməl də etdi. O gündən dostluğumuzun tarixi başlandı. Təəssüflər olsun ki, Salamı çox erkən itirdik. 1987-ci ilin noyabrında 64 yaşında ikən vəfat etdi.

Əli müəllim kövrəlir. «Sizə, bütövlükdə redaksiyamıza razılığımı ifadə etmək üçün söz tapa bilmirəm. Çox sağ olun. Bu yazını hazırlamaqla savab iş görürsünüz...»

***- Əli müəllim, Salam Qədirzadənin xatirəsi hamımız üçün əzizdir. Onu yada salmamaq, xatırlamamaq nankorluq, mənən kasıblıqdır, dayazlıqdır. Nə isə...istərdik söhbətinizi davam etdirəsiniz. O ağır günü necə xatırlayırsınız?***

- Noyabrın 7-si idi. Oğlu Ruslan hərbi toplantıdan qayıtmışdı. Bu münasibətlə Salam bizi «Əfsanə» restoranında nahara dəvət etmişdi. Ondan bir gün qabaq isə Mərdəkandan – bağdan qayıdarkən maşınını bir balaca zədələmişdi. Düşündük ki, nahardan əvvəl gedib maşını ustaya tapşıraq – düzəltsin, təmir etsin. Usta maşına yenicə baxırdı ki, gördüm Salam pıçıltıya bənzər səslə məni çağırır: «Başım yaman fırlanır». «Salam! Salam!» - deyə ona tərəf qaçdım. Gördüm yıxılır, tez tutdum. Təcili xəstəxanaya apardıq. On gün keçmədi ki...

***- Maşının vurulması ona təsir edərdimi?***

- Yox. O, əvvəllər də ürəyindən şikayətlənirdi. Əlbəttə, burada gərgin işlərinin də təsiri də vardı. Ən çox isə... Bir dəfə onların evinin yanında sərnişinləri ilə bir tramvay yanmışdı. Bu hadisəni Salam böyük sarsıntı ilə qarşılamışdı...

***- Salam Qədirzadə ilə düz 25 il dostluq edibsiniz. Maraqlıdır ki, bu müddət ərzində bir dəfə belə inciklіyiniz olmayıb. Bəlkə bir xatirə danışasınız.***

- Mənim dostlarım çox olub. Amma Salam dost aləmində bir idi, nadir idi, əvəzsiz idi. Dostluğun simvolu idi. Dilinə yalan gətirməzdi. Sözünün yiyəsi idi. Heç vaxt vədinə xilaf çıxmazdı. Çox diqqətli, qayğıkeş idi.

«Kirpi»də işləyərkən yanıma bir neçə nəfər gəlmişdi. Bir məktub da gətirmişdilər. Alıb oxudum. Ərəb əlifbası ilə bir köhnə tanışım yazmışdı: «Əli, bu məktub gətirənlər mənim yaxın adamlarımdır. Kombinatda işləyirdilər. Oranı «Kirpi» yoxlayıb. Eşitmişik ki, sən jurnalın redaktoru Salam Qədirzadə ilə dostsan. Xahiş edirəm, imkan daxilində bunlara köməyin dəysin...»

Xaçmazdan gələnlərin maşınına minib Qoqol küçəsinə getdik. Yol boyu onlar hadisəni danışdılar ki, kombinatda böyük yeyinti olub. «Kirpi» bu haqda felyeton hazırlayır. Nəyin bahasına olursa-olsun, bu yazının qarşısı alınmalıdır.

Maşından düşüb «Kirpi» jurnalının redaksiyasına qalxmaq istəyirdim ki, həmin adamlar dedi: «qardaş, bu məsələ üçün Salam müəllimə Mərkəzi Komitədən, Nazirlər Sovetindən, müxtəlif orqanlardan çox xahişlər olunub. Ancaq heç birini eşitməyib. Biz sənə 50 min manat pul veririk (o vaxt bu pula 10 ədəd təzə «Jiquli» düşürdü). Bu haqda redaktora heç nə demə. İşi korlarsan. Çünki o, pul götürən deyil.»

Çox çıxılmaz vəziyyətdə qaldım. Əgər bu sözləri əvvəlcədən desəydilər, mən heç gəlməzdim. İndi...

İndi isə iş-işdən keçmişdi. Ayağımı sürüyə-sürüyə redaksiyaya qalxdım. Adəti üzrə məni çox mehriban qarşıladı. Hadisəni danışdım. Pul əhvalatı haqda hələlik, heç nə demədim. Soruşdu ki, o adamları haradan tanıyırsan? Məktubu göstərdim. Dərindən köksünü ötürdü: «Əli, əvvəla, bu adamlar yaxşı adama oxşamırlar. Şübhəlidirlər. Məqaləni yazana da mən çox inanıram. Ona küllü miqdarda rüşvət təklif ediblər, almayıb. İkincisi, bu işlə bağlı mənə saysız-hesabsız zənglər, xahişlər olub. Ancaq razı olmamışam. Amma indi bir halda ki, sən gəlmisən, məcburam o yazını dayandıram. Qoy məktub sahibi də düşünməsin ki, Salam dostunun sözünə qulaq asmadı».

Gülümsündüm. Soruşdu ki, niyə gülürsən? Dedim ki, sən doğru deyirsən, onlar təmiz adama oxşamır. Amma bir iş var. Şübhələndi: «Nə iş?» Dedim: «Onlar mənə 50 min manat pul veriblər». Qaşları çatıldı: «Yox Əli, mən səni neçə illərdir tanıyıram. Sən zarafat edirsən. Bilirəm ki, belə iş görməzsən. Yaxşı bəs indi nə edək? «Dedim: «Nə edəsisən, bir halda ki, təmiz adam deyillər, yazını ver getsin».

Qaralmış çöhrəsinə işıq gəldi. Mən özüm də yüngüllük tapdım. Sanki çiynimdən dağ götürdülər... Beləliklə, o yazı da getdi, kombinatı yeyənlər də...

Bax, Salam belə təmiz, pak, müqəddəs idi. Bu dəqiqə and içə bilərəm ki, 64 illik həyatında o, bir dəfə belə haram tikə dadmadı...

**Yaşar HİDAYƏTOĞLU**